**Təsdiq edilmişdir:**

**AGF-nin Ümumi Yığıncağının**

**16.02.2026-cı il tarixli Qərarı ilə**

**AGF-nin vitse-prezidenti Altay Həsənov**

# “Azərbaycan Gimnastika Federasiyası”

# İctimai Birliyinin

# İNTİZAM QAYDALARI

# (yeni nəşr)

**Maddə 1. Məqsədlər**

Azərbaycan Gimnastika Federasiyasının (bundan sonra “AGF”) fəaliyyətinə cəlb olunmuş bütün şəxslər (bundan sonra “iştirakçılar” adlandırılacaq) bu İntizam Qaydalarına (bundan sonra “Qaydalar”) tam riayət etməyə borcludurlar.

**Maddə 2. Tətbiq dairəsi**

Bu Qaydalarda, “İştirakçılar” dedikdə aşağıdakı şəxslər və təşkilatlar nəzərdə tutulur:

- Gimnastlar;
- Gimnastların ətrafında olan şəxslər (rəsmi şəxslər, hakimlər, məşqçilər, xoreoqraflar, tibbi heyət, idmançının səlahiyyətli nümayəndəsi və s.);
- Azərbaycan Respublikasının ərazisində qeydiyyatdan keçmiş İdman Klubları, İdman Təşkilatlarının gimnastika növləri üzrə bölmələri, onların nümayəndələri və işçi heyətləri;
- AGF-nin səlahiyyətli orqanları, seçilmiş və ya təyin olunmuş üzv və ya nümayəndələri;
- AGF-nin tərəfdaşları;
- Əmək və ya xidmət müqaviləsi ilə və yaxud könüllülük əsasında AGF-nin fəaliyyətinə cəlb olunmuş hər bir şəxs;
- AGF-nin rəsmi yarışları, tədbirləri və ya tanıdığı və ya iştirak etdiyi yarışlar və tədbirlər vaxtı Yerli Təşkilat Komitəsinin üzvləri, könüllülər, yarış və tədbirlərdə iştirak etmək üçün akkreditasiya və ya qeydiyyatdan keçmiş bütün şəxslər;
- Ümumi Yığıncaqda səsvermə hüquqlu nümayəndələr;
- AGF-də və ya üzv klublarda, təşkilatlarda seçkili vəzifələrə namizədlər;
- Akkreditasiyası olmayan, lakin tədbirlərdə və ya yarışlarda iştirak edən və yaxud yarışların, tədbirlərin hazırlıq mərhələsində iştirak edən şəxslər;
- Yazılı razılaşma əsasında AGF qaydalarına tabe olan istənilən hüquqi və fiziki şəxs.

**Maddə 3. AGF-nin İntizam Komissiyası**

AGF Nizamnaməsinin (bundan sonra Nizamnamə) 9-cu maddəsinə müvafiq olaraq, AGF-nin İntizam Komissiyası (bundan sonra “İntizam Komissiyası”) AGF-nin intizam orqanıdır.

İntizam Komissiyasının tərkibi, seçilmə qaydası, səlahiyyət müdddətləri və digər məsələlər Nizamnamənin 9-cu maddəsi ilə tənzimlənir.

Bu Qaydalarda və Nizamnamədə birbaşa göstərişlərin nəzərdə tutulduğu hallar istisna olmaqla, İntizam Komissiyası öz qərarlarını Beynəlxalq Gimnastika Federasiyasının

sənədlərində, bu Qaydalarda təsbit olunmuş prinsiplərə və Azərbaycan Respublikasının qanunvericiliyinə əsaslanaraq çıxarır.

İntizam Komissiyası Nizamnamənin 9.9-cu maddəsində qeyd olunan qaydaları tətbiq və icra edir. İntizam Komissiyası Nizamnamənin 6.11-ci maddəsinə uyğun olaraq zəruri hesab etdiyi dəyişiklik və ya əlavələri İcra Komitəsinə təklif edə bilər.

İntizam Komissiyasının üzvləri öz səlahiyyətləri çərçivəsində vəzifələrinin icrası zamanı və ya qərarqəbuletmə prosesi çərçivəsində ifadə etdikləri fikirlərə, gördükləri tədbirlərə və qəbul etdikləri qərarlara görə məsuliyyətə cəlb edilə bilməzlər.

**Maddə 4. Qayda pozuntuları**

İştirakçılar Nizamnaməyə, AGF-nin səlahiyyətli orqanları tərəfindən qəbul edilmiş qərar və göstərişlərə hörmətlə yanaşmalıdırlar. Nizamnamənin, səlahiyyətli orqanlar tərəfindən qəbul edilmiş qərar və göstərişlərin müddəalarının, həmçinin vicdanlılıq prinsiplərinin pozulması və qeyri-idmani, qeyri-etik davranışlar bu Qaydalara müvafiq olaraq məsuliyyətə səbəb olur.

Sanksiyalar aşağıdakı davranışlara görə tətbiq edilir:

- Nizamnamənin, AGF-nin səlahiyyətli orqanları tərəfindən qəbul edilmiş qərar və göstərişlərinin müddəalarının pozulması, o cümlədən qeyri-etik davranış, etinasızlıq, cinsi qısnama və istismar, bullinq, zorakılıq, korrupsiya, səlahiyyətlərdən sui-istifadə və ya yarış nəticələrinə qeyri-qanuni təsir göstərilməsi halları barədə məlumatlı olub, bu Qaydaların 6-cı maddəsi ilə müəyyən olunmuş qaydada məlumat verməkdən qəsdən və ya kobud ehtiyatsızlıqla boyun qaçırılması;
- Qəsdən və ya kobud ehtiyatsızlıqla əsassız, yalan və ya qərəzli intizam şikayəti, iddia, yaxud məlumatın verilməsi;
- Qeyri-idmani, qeyri-etik davranışlara yol verilməsi, fikir və ya hərəkətləri ilə gimnastikanın imicinə ziyan vurulması;
- Yarışların gedişatı və nəticəsinə qeyri-qanuni təsir göstərilməsi;
- Nizamnamə və AGF-nin Texniki Reqlamentinin tələblərinin pozulması;
- AGF-nin Davranış Qaydalarının tələblərinə əməl olunmaması;
- AGF-nin Etika Qaydalarında müəyyən olunan davranış prinsiplərinə və qaydalarına əməl olunmaması;

- AGF-nin Gimnastikada Təhlükəsiz Mühitin Təminatı və İştirakçıların Şəxsiyyətinin Qorunması (Seyfqardinq) üzrə Qaydalarının və digər müvafiq Qaydaların pozulması;
- AGF-nin adını və ya vəsaitlərini Nizamnamə, AGF-nin səlahiyyətli orqanlarının qərar və göstərişlərinə uyğun gəlməyən məqsədlər üçün istifadə edilməsi;
- AGF-nin səlahiyyətinə aid olduğu halda, Respublika və beynəlxalq anti-dopinq qaydalarının pozulması;
- AGF ilə bağlanmış müqavilə üzrə öhdəliklərin pozulması.

İntizam Komissiyası Nizamnamənin 9.9-cu maddəsinə uyğun olaraq, yuxarıda göstərilən qayda pozuntuları ilə bağlı işlərə AGF-nin aşağıdakı qaydaları çərçivəsində dinləmə keçirmək vasitəsilə baxır və qərar qəbul edir:

- İntizam Qaydaları;
- Gimnastikada Təhlükəsiz Mühitin Təminatı və İştirakçıların Şəxsiyyətinin Qorunması (Seyfqardinq) üzrə Qaydaları;
- Etika Qaydaları;
- Davranış Qaydaları.

Hadisələrin İdarəolunması Qrupunun Nizamnamənin 12.2-ci maddəsində nəzərdə tutulan səlahiyyətləri çərçivəsində qiymətləndirdiyi və İntizam Komissiyasına yönləndirdiyi məsələlər də intizam icraatına səbəb ola bilər.

**Maddə 5. Məsuliyyət**

İdman klubları və təşkilatlar öz üzvləri, idmançıları və rəsmi şəxslərinin (məşqçilər, xoreoqraflar, hakimlər və digərlərinin), həmçinin yarışlar vaxtı müəyyən funksiyaların yerinə yetirilməsi üçün təyin edilmiş şəxslərin davranış və hərəkətlərinə görə məsuliyyət daşıyırlar.

Yuxarıda göstərilən şəxslər tərəfindən yol verilən istənilən qayda pozuntusu müvafiq İdman klubları və təşkilatlarına qarşı intizam sanksiyasına gətirib çıxara bilər.

Yarışları təşkil edən İdman klubları və təşkilatları, həmçinin istənilən hüquqi və ya fiziki şəxs yarışların keçirildiyi yerdə və ona bitişik ərazilərdə yarışlardan əvvəl, yarış vaxtı və yarışlar bitdikdən sonra təhlükəsizliyin və asayişin təmininə görə məsuliyyət daşıyırlar.

Yuxarıdakı tələblər yerinə yetirilmədiyi halda, müvafiq şəxslərə qarşı bu Qaydalarda nəzərdə tutulmuş intizam tədbirləri tətbiq edilə bilər.

**Maddə 6. Qayda pozuntularının sübut edilməsi**

Nizamnamənin, Davranış Qaydalarının, Etika Qaydaların, Gimnastikada Təhlükəsiz Mühitin Təminatı və İştirakçıların Şəxsiyyətinin Qorunması (Seyfqardinq) üzrə Qaydalarının AGF-nin səlahiyyətli orqanları tərəfindən qəbul edilmiş qərar və göstərişlərinin pozulması müvafiq qaydada sübut edilə bilər. AGF-nin rəsmi nümayəndəsi tərəfindən edilmiş və öz əksini rəy və protokollarda tapmış müraciət, əksi sübut edilənədək, sübut qüvvəsinə malikdir.

İntizam Komissiyası hər hansı cinayət icraatının başlanması, dayandırılması və ya nəticəsindən asılı olmayaraq intizam tənbehi tətbiq edə bilər.

İştirakçının cinayət əməli törətməsinə görə məhkum edilməsi müvafiq qayda pozuntusunun sübutu kimi qəbul edilə bilər. İntizam Komissiyası iştirakçının və ya digər zərərçəkmiş tərəfin izahatlarını qiymətləndirdikdən sonra, məsələni daha ətraflı araşdıra və ya müstəqil qiymətləndirməsi əsasında müvafiq cinayət ittihamına istinadən sanksiya tətbiq edə bilər.

İştirakçılar AGF-nin səlahiyyətli orqanları tərəfindən qəbul edilmiş qərar və göstərişlərin, intizam pozuntusu hesab edilən istənilən əməl barədə, həmçinin bu Qaydaların tələblərinin istənilən formada pozulması barədə AGF-nin Baş katibini (bundan sonra “Baş katib”), “Safeguarding” məsələləri üzrə meneceri, Hadisələrin İdarəolunması Qrupunu yazılı və ya şifahi surətdə məlumatlandırmalıdırlar.

Məlumatvermə, o cümlədən anonim məlumatvermə Nizamnamənin 12.2.4.2-ci bəndində nəzərdə tutulan anonim məlumatvermə sistemi vasitəsilə də həyata keçirilə bilər.

Bütün İdman klubları və təşkilatları AGF-nin səlahiyyətli orqanlarının səlahiyyətinə aid olan bütün qayda pozuntuları barədə Baş katibi, AGF-nin “Safeguarding” məsələləri üzrə meneceri və ya Hadisələrin İdarəolunması Qrupunu yazılı surətdə məlumatlandırmalıdırlar.

AGF-nin səlahiyyətli orqanları anti-dopinq nəzarəti və dopinqdən istifadəyə görə sanksiyalarla bağlı öz səlahiyyətləri çərçivəsində xüsusi qaydalar təsdiq edə bilərlər.

**Maddə 7. İddia müddəti**

İntizam pozuntusu aşağıdakı müddətlərdən gec olmayaraq İntizam Komissiyasının müzakirəsinə çıxarıla bilər:

A. Bu maddənin b bəndində nəzərdə tutulan əməllər istisna olunmaqla, yarışlarda baş verən bütün əməllərə görə həmin yarış başa çatdıqdan sonra 3 (üç) ay ərzində;
B. dopinqin istifadəsi ilə bağlı əməllərdə - həmin əməl baş verdikdən sonra 10 (on) il ərzində;
C. Cinsi istismar, zorakılıqla əlaqədar bütün digər əməllərdə Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq;
D. Əmək və ya icra intizamının pozulması ilə bağlı işlərdə AR Əmək Məcəlləsinin 187-ci maddəsində nəzərdə tutulan müddətlərdə;
E. bütün digər əməllər üçün həmin əməl baş verdikdən sonra 1 (bir) il ərzində.

**Maddə 8. Sanksiyanın tətbiq edilməməsi**

İntizam Komissiyası heç bir qayda pozuntusunun olmaması və ya prosesin yekunlaşdırılmasını zəruri hesab etdiyi hallarda əsaslandırılmış və yazılı qərar çıxarır.

Qaydada nəzərdə tutulan iddia müddəti bitmədiyi halda bütün bağlı işlər, əgər yeni sübutlar aşkar edilərsə, yenidən bərpa edilə bilər.

**Maddə 9. Sanksiyalar**

İntizam Komissiyası, əməlin obyektiv və subyektiv tərəflərinin araşdırılması şərtilə, intizam sanksiyasının növünü və müddətini müəyyən edir.

Nizamnamənin, AGF-nin qaydalarının, səlahiyyətli orqanları tərəfindən qəbul edilmiş qərar və göstərişlərin pozulduğu təqdirdə, bu Qaydalarda nəzərdə tutulan intizam ölçüləri fiziki və hüquqi şəxslərə, bütün İştirakçılara tətbiq edilə bilər.

Sanksiyalar ağırlaşdırıcı və yüngülləşdirici hallar nəzərə alınmaqla tətbiq edilir.

Bir neçə qayda pozuntusu törədildiyi təqdirdə, ən ağır qayda pozuntusu üçün nəzərdə tutulmuş sanksiya daha kiçik qayda pozuntusuna görə nəzərdə tutulmuş sanksiyanın yarısı ilə toplanmaqla tətbiq edilir.

İkinci və növbəti qayda pozuntusu törədilməsi (əgər bu qayda pozuntusu İntizam Komissiyası tərəfindən cəza tətbiq edilən əvvəlki əməlin törədilməsindən sonrakı 5 (beş) il ərzində törədildikdə) ağırlaşdırıcı hal sayılır.

Yüngül qayda pozuntuları və ya yüngülləşdirici hallar olduqda, intizam cəzası, icranın 1 ildən 5 ilədək tam və ya qismən təxirə salınması ilə təyin edilə və ya birləşdirilə bilər.

Əhəmiyyətli dərəcədə yüngül qayda pozuntuları və ya yüngülləşdirici əsaslar olduqda, intizam sanksiyaları tətbiq edilməyə bilər.

**Maddə 9-1. Sanksiyaların növləri**

Sanksiyaların növləri aşağıdakılardır:

a) xəbərdarlıq;

b) töhmət;

c) əlaqədar İdman klubları və təşkilatları və ya şəxsin AGF tərəfindən təşkil olunan bir və ya bir neçə rəsmi yarışlara və ya tədbirlərə müvəqqəti olaraq buraxılmaması;

ç) vəzifəsinin aşağı salınması prosedurunun müvafiq qaydalara uyğun həyata keçirilməsi;

d) layiq görüldüyü kateqoriya və ya diplomların ləğv edilməsi;

e) cərimə (maddi);

ə) AGF səlahiyyətli orqanlarının hər hansı birinə seçilmiş şəxsin bir və ya bir neçə vəzifədən müəyyən və ya qeyri-müəyyən müddətə müvəqqəti kənarlaşdırılması məsələsinə müvafiq qaydalara uyğun olaraq baxılması;

f) İdman klubları və təşkilatlarının müəyyən və ya qeyri-müəyyən müddətə üzvlükdən çıxarılması və ya tanınmasının ləğv edilməsi;

g) AGF əməkdaşının işdən azad edilməsi;

ğ) yarış nəticələrinin ləğv edilməsi;

h) verilmiş maliyyə vəsaitləri və mükafatların geri qaytarılması öhdəliyi;

x) dopinqlə mübarizə qaydalarından irəli gələn və AGF-nin səlahiyyətinə aid olan intizam sanksiyaları;

k) İntizam Komissiyasına çıxarılmayan məsələlər üzrə Baş katibin yazılı və ya şifahi xəbərdarlığı;

i) İntizam Komissiyası tərəfindən təklif olunan hər hansı bir digər sanksiya;

l) Nizamnamənin 2.3.12-ci bəndində nəzərdə tutulan idman diskvalifikasiyası.

**Maddə 10. Müsadirə**

İntizam Komissiyası Nizamnamənin, AGF-nin səlahiyyətli orqanları tərəfindən qəbul edilmiş qərar və göstərişlərin pozulması yolu ilə qazanılmış pul və digər mükafatların müsadirə edilməsi barədə qərar çıxarmaq hüququna malikdir. Bundan əlavə, Nizamnamənin, AGF-nin səlahiyyətli orqanları tərəfindən qəbul edilmiş qərar və göstərişlərin pozulmasına şübhələr olduğu halda, İntizam Komissiyası bu məsələ ilə əlaqədar araşdırmalar sona yetənədək mükafatları müsadirə edə bilər.

**Maddə 11. İntizam prosedurlarının başlanılması**

İntizam Komissiyası Nizamnamənin, AGF-nin səlahiyyətli orqanları tərəfindən qəbul edilmiş qərar və göstərişlərin və ya bu Qaydaların 4-cü maddəsində göstərilmiş pozuntularla bağlı daxil olan müraciətlərə baxır.

İştirakçıların və üçüncü tərəflərin yazılı və şifahi məlumatları, İdman Klubları və Təşkilarının yazılı məlumatları, anonim məlumatvermə sistemi vasitəsilə daxil olmuş məlumatlar və digər qanuni mənbələrdən məlumatlar daxil olduqda, məsələ Hadisələrin İdarəolunması Qrupu tərəfindən araşdırılır.

İntizam prosedurları Hadisələrin İdarəolunması Qrupunun toplanmış araşdırma materiallarının yönləndirməsi əsasında İntizam Komissiyası tərəfindən başlanılır. İntizam Komissiyası işlərə qapalı şəkildə baxır.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin tələbləri və AGF-nin Texniki Reqlamentinə əsasən Baş katib öz səlahiyyətləri çərçivəsində AGF-nin hər hansı əməkdaşı və ya İştirakçılar barəsində intizam qaydaları pozulduğu halda intizam icraatı başlaya bilər və ya araşdırma materiallarını İntizam Komissiyasına yönləndirilə bilər. Ümumi Yığıncaq da öz səlahiyyətləri çərçivəsində intizam icraatının aparılması barədə qərar qəbul edə bilər və ya İntizam Komissiyasına yönləndirə bilər.

Nizamnamənin 9.7-ci maddəsinə uyğun olaraq, İntizam Komissiyası tərəfindən işlərə tərəflərin dinlənilmə hüquqları təmin edilməklə, dinləmə keçirilməklə baxılır.

Zəruri hallarda, İntizam Komissiyasının qərarı ilə tərəflərin dinlənilmə hüquqları təmin edilməsi şərtilə, dinləmələr həmçinin videokonfrans vasitəsilə və ya digər uzaqdan iştirak imkanı verən elektron formatlarda da keçirilə bilər.

İntizam Komissiyasının sədri və ya müvafiq üzvü dinləmədən əvvəl bütün tərəflərə şikayətin mahiyyəti barədə məlumat verməli və şikayətin mahiyyəti barədə məlumat sənədini onlara göndərməlidir. Tərəflər həmin sənədin surətini aldıqdan sonra 10 (on) təqvim günü ərzində öz yazılı rəylərini İntizam Komissiyasına təqdim edə bilərlər. İşin mahiyyəti və mürəkkəbliyindən asılı olaraq, həmin müddət İntizam Komissiya tərəfindən artırıla bilər. Alınmış rəylər dərhal şikayətçiyə göndərilir.

**Maddə 11-1. Müvəqqəti (ilkin qoruyucu) tədbirlər**

Hadisələrin İdarəolunması Qrupu araşdırma aparıldığı müddətdə iştirakçıların, xüsusən yetkinlik yaşına çatmayanların təhlükəsizliyinin və şəxsiyyətinin qorunması, sübutların və araşdırmanın bütövlüyünün təmin edilməsi, habelə mümkün zərərin qarşısının alınması məqsədilə ilkin qoruyucu (müvəqqəti) tədbirlər görə bilər.

İntizam Komissiyası, AGF-nin Gimnastikada Təhlükəsiz Mühitin Təminatı və İştirakçıların Şəxsiyyətinin Qorunması (Seyfqardinq) üzrə Qaydalarına uyğun olaraq, aşağıdakı hallardan biri və ya bir neçəsi mövcud olduqda, iştirakçının tutduğu vəzifədən müvəqqəti kənarlaşdırılması da daxil olmaqla qabaqlayıcı tədbirlər tətbiq edə bilər:

- iştirakçı digər iştirakçılar üçün əhəmiyyətli risk yaratdıqda;
- idmanın nüfuzu risk altında olduqda;
- iştirakçının tutduğu vəzifədə qalması araşdırmaya mane olduqda.

Müvəqqəti tədbirlər sanksiya deyil; onların tətbiqi qayda pozuntusunun sübutu və ya təqsirin müəyyən edilməsi kimi qiymətləndirilə bilməz və iş üzrə yekun qərara təsir göstərmir.

Müvəqqəti tədbirlər mütənasiblik prinsipinə uyğun olaraq və yalnız zəruri olan müddətə tətbiq edilir, onların tətbiqinə əsas verən hallar aradan qalxdıqda ləğv edilir.

**Maddə 12. İntizam prosedurunun iştirakçıları**

İntizam prosedurunun tərəfləri aşağıdakılardır:

- İddiaçı;

- Cavabdeh.

İşin nəticəsi ilə hüquqi marağı olan üçüncü şəxslər intizam prosedurunda işdə iştirak edən şəxslər qismində cəlb oluna bilərlər.

Şahidlər, ekspertlər, habelə zərurət olduqda mütəxəssis və tərcüməçi intizam prosedurunun digər iştirakçılarıdır. Bu şəxslər işin obyektiv araşdırılmasına kömək məqsədilə cəlb olunur, tərəf statusuna malik deyildirlər və işin nəticəsində maddi-hüquqi maraqları olmamalıdır.

Əgər intizam şikayəti yazılı formada təqdim olunubsa və konkret şəxs və ya İdman klubları və təşkilatlarına birbaşa aidiyyatı varsa, həmin şəxs və ya İdman klubları və təşkilatları rəsmi nümayəndələri vasitəsilə  prosesdə iştirak üçün çağırıla və ya qiyabi formada prosesə cəlb oluna bilər.

**Maddə 13. Təmsil olunma və xəbərdarlıq**

İntizam prosesinin tərəfləri prosesdə səlahiyyətli nümayəndələri vasitəsilə təmsil oluna bilərlər. Bu cür şəxslərə müvafiq yazılı, zərurət yarandıqda isə notarial təsdiq olunmuş etibarnamə verilməlidir. İntizam prosedurunda tərəf olan 18 yaşına çatmayan şəxslərin qanuni nümayəndələri də dinləmələrdə iştirak etməlidirlər.

İntizam Komissiyası zəruri hesab etdiyi və şikayətçi tərəfindən prosesdə anonimlik tələbi olmadığıhalda, tərəflərdən intizam prosesində şəxsən iştirak etməyi tələb edə bilər.

Hər bir intizam komissiyası araşdırmasında Baş katib İcra Komitəsi sədrinin və ya onun müavininin razılığı ilə AGF-ni intizam prosesində təmsil edəcək şəxsi müəyyənləşdirir.

Barəsində şikayət daxil olmuş tərəf bu barədə elektron poçtu, şəxsi ünvanı və ya telefonu vasitəsilə xəbərdar edilir. Əgər İntizam Komissiyası tərəfin şəxsi ünvanını bilmirsə, xəbərdarlıq müvafiq İdman klubları və təşkilatlarına göndərilir. Həmin İdman klubları və təşkilatları bu xəbərdarlığın tərəfə çatdırılmasına cavabdehdir.

Əgər şəxs və ya müvafiq İdman klubları və təşkilatları xəbərdarlığı qəbul etməzsə və ya qəbulunu təkzib edərsə, həmin xəbərdarlıq qeydə alınmış göndəriş tarixindən 10 təqvim günü sonra qəbul edilmiş sayılacaq.

Tərəf səlahiyyətli nümayəndəsi vasitəsilə təmsil olunduqda, yazılı xəbərdarlıq həmin nümayəndənin bilavasitə ünvanına çatdırılmalıdır.

Xəbərdarlıqlar tərəflərdən, həmçinin İntizam Komissiyasından poçt və ya faks vasitəsilə göndərildikdə, həmin xəbərdarlığın göndərilməsi və alınması barədə sübut olmalıdır.

**Maddə 14. Yekun müddətlərin hesablanması**

Bütün yekun müddətlər xəbərdarlığın göndərilməsinin ertəsi gününündən hesablanmağa başlayır və həmin müddətin sonuncu günü gecə yarısı sona yetir.

Əgər yekun müddətin bitməsi şənbə, bazar və ya rəsmi qeyri-iş günlərinə düşərsə, yekun müddət növbəti iş gününə keçirilir.

İntizam Komissiyasının xəbərdarlıqlarında göstərilən müddətlər tərəflərin yazılı vəsatəti əsasında və yalnız üzrlü səbəblər olduğu halda, İntizam Komissiyası tərəfindən uzadıla bilər. Bu Qaydalarda nəzərdə tutulan yekun müddətlər bu Qaydalarda, Nizamnamədə nəzərdə tutulan hallar istisna olmaqla, uzadıla bilməz.

**Maddə 15. Şikayətlərin müzakirə edilməsi**

Tərəflər AGF-nin ofisində şikayətin mahiyyəti haqqında xəbərdar olmaq hüququna malikdirlər.

Tərəflərə müzakirə olunan şikayət barədə informasiyanı (tam və ya qismən) üçüncü şəxslərə açıqlamaq qadağan edilir. Bu qadağa tərəflərin informasiyanı səlahiyyətli nümayəndələrinə açıqlamasına şamil edilmir.

**Maddə 16. İmtina və xitam vermə**

Baxılan iş üzrə qərar qəbuletmə prosesinin müstəqilliyini və qərəzsizliyini təmin etmək məqsədilə Komissiyanın hər bir üzvü mövcud, potensial və ya ehtimal edilən hər hansı maraqlar toqquşmasını dərhal açıqlamalıdır. İşə baxacaq tərkibin sədri (İntizam Komissiyasının sədri) və ya üzvlərdən seçilmiş tərkibin sədri, tərkibin üzvü ilə bağlı açıqlanmış hər hansı maraqlar toqquşması barədə qərar qəbul edir.

Nizamnamə ilə müəyyən olunmuş əsaslar olduqda, tərəf İntizam Komissiyasının hər hansı üzvünün işdə iştirakdan kənarlaşdırılması barədə, həmin işə baxılmamışdan əvvəl vəsatət verə bilər.

İntizam Komissiyasının hər bir üzvü konkret iş üzrə baxışa təyin edildikdən sonra, həmin işlə bağlı hər hansı mövcud, potensial və ya ehtimal edilən maraqlar

toqquşmasının olmamasını və konfidensiallıq siyasətini təsdiq edən yazılı bəyannamə imzalamalıdır. Bu bəyannamə iş materiallarına əlavə edilir. Maraqlar toqquşması sonradan aşkar edildiyi halda, Komissiya üzvü dərhal bu barədə məlumat verməli və işə baxılma prosesindən kənarlaşdırılmalıdır.

Prosesdən kənarlaşdırma barədə vəsatət yazılı formada verilir və İntizam Komissiyasının sədrinə ünvanlanır. İntizam Komissiyasının sədri vəsatət barədə qərarı sərbəst şəkildə qəbul edir. İntizam Komissiyasının sədrinin prosesdən kənarlaşdırılması barədə vəsatətə həmin Komissiyanın digər üzvləri tərəfindən baxılır.

Yuxarıda göstərilən vəsatətlərlə bağlı qərarlardan şikayət verilə bilməz.

İntizam orqanının üzvləri, həmçinin Hadisələrin İdarəolunması Qrupunun üzvləri hər hansı maraqlar toqquşmasını dərhal bəyan etməli və zərurət olduqda heyətdən və ya Qrupdan kənarlaşmalıdırlar.

Əvvəllər məlum olmayan hallar və ya məsələlər sonradan İntizam Komissiyasına təqdim edildiyi və bu hallar maraqlar toqquşması təşkil etdiyi təqdirdə, müvafiq üzvlər daha sonrakı mərhələdə də kənarlaşdırıla bilərlər.

Fiziki və ya hüquqi şəxslərin kənarlaşması üçün əsaslara aşağıdakılar daxildir, lakin bunlarla məhdudlaşmır: şəxsin hazırda faktiki həyat yoldaşı olan və ya keçmişdə faktiki həyat yoldaşı olmuş və ya sözügedən şəxslə nikah münasibətlərində olan şəxslər, o cümlədən ana, ata, nənə, baba, xala, bibi, qardaş, bacı, övlad, nəvə, qardaş, bacı oğlu, əmi, dayı, xala, bibi oğlu və ya qızı daxil olmaqla, yaxın qohum və ya sonradan qohum olmuş şəxslər nəzərdə tutulur.

Tərəflər maraqlar toqquşmasına əsaslanaraq İntizam Komissiyasına, həmçinin Hadisələrin İdarəolunması Qrupuna etiraz təqdim edə bilərlər. Belə etirazlar yazılı şəkildə təqdim edilməli və əsaslandırılmış izahatı əhatə etməlidir.

Etiraz, kənarlaşma səbəbi barədə məlumat əldə edildikdən sonra ən geci 5 (beş) təqvim günü ərzində İntizam Komissiyasına, yaxud Hadisələrin İdarəolunması Qrupuna təqdim olunmalıdır. Kənarlaşma səbəbinin sübutu kənarlaşma tələb edən şəxs tərəfindən təqdim edilməlidir.

Yuxarıda qeyd olunan kənarlaşma tələbləri ilə bağlı bütün qərarlar qətidir və onlardan şikayət verilə bilməz.

**Maddə 17. Ümumi prosessual və inzibati qaydalar**

İntizam Komissiyasının sədri bütün üzvlərini işin baxılacağı yer və vaxt barədə məlumatlandırır, həmçinin işdəki tərəflərin və onların qanuni təmsilçilərinin də bu barədə lazımi qaydada məlumatlandırılmasına əmin olur.

İntizam Komissiyasının sədri öz davranışı ilə işin baxışına mane olan istənilən şəxsi 100 (bir yüz) AZN məbləğində cərimələyə bilər. Bundan əlavə, həmin şəxs iş üzrə dinləmələrdən kənarlaşdırıla və işə baxılması onun iştirakı olmadan davam etdirilə bilər.

Komissiyanın sədri İntizam Komissiyasının katibini təyin edir. İntizam Komissiyasının katibi İntizam Komissiyasının üzvü deyil və İntizam Komissiyasının fəaliyyətinin inzibati təminatı ilə məşğul olur, həmçinin İntizam Komissiyasının iclaslarının rəsmi protokolunu tərtib edir.

**Maddə 18. Protokollar**

İntizam Komissiyasının iclasları protokollaşdırılır. Protokol İntizam Komissiyasının sədri və ya müvafiq üzvü və Komissiyanın katibi tərəfindən imzalanır. Protokolda işdə iştirak edən bütün tərəflərin çıxışları əksini tapmalıdır. Protokollar tərəfləri xəbərdar etməklə prosesin video və ya audio yazılışı ilə əvəz oluna bilər.

**Maddə 19. Dinləmələr**

Dinləmələrdə yalnız tərəflər (onların nümayəndələri) və İntizam Komissiyası tərəfindən çağırılmış şəxslər iştirak edir. Dinləmələr şifahi formada keçirilir. İntizam Komissiyasının qərarı ilə dinləmələr həmçinin videokonfrans vasitəsilə və ya digər uzaqdan iştirak imkanı verən elektron formatlarda da keçirilə bilər.–Videokonfrans formatında keçirilən dinləmələr bu Qaydalarda qeyd olunan intizam prosedurunun keçirilmə xüsusiyyətlərinə uyğun olaraq həyata keçirilməlidir.

İşlərə 5 nəfərdən ibarət tərkibdə baxıldığı hallarda, dinləmələrdə İntizam Komissiyası üzvlərinin 2/3-si iştirak etdikdə tərkib səlahiyyətlidir.

Nizamnamənin 9.7-ci maddəsinə uyğun olaraq, İntizam Komissiyası hər bir iş üzrə 1 (bir), 3 (üç) və ya 5 (beş) nəfərdən ibarət tərkib müəyyən edir və qərar həmin tərkib tərəfindən qəbul edilir. Həmin tərkibdə müstəqil üzvlərin sayı daha çox olmalıdır.

**Maddə 20. İşdə iştirak edən şəxslərin intizam proseduruna gəlməməsinin nəticələri**

İntizam Komissiyası, İntizam prosedurunun vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilmiş tərəfin gəlməməsinin səbəbləri haqqında məlumat olmadıqda və ya İntizam Komissiyası gəlməməyin səbəblərini üzrsüz hesab etdikdə, müvafiq tərəfin iştirakı olmadan işə baxmaq və qərar qəbul etmək hüququ var. Tərəfin gəlməməsi halında onun ilkin araşdırmalar zamanı verdiyi məlumatlar əsas götürülə və təsdiqlənmiş hesab edilə bilər.

İntizam Komissiyası son qərar çıxarmazdan əvvəl, intizam prosedurunun hər hansı bir mərhələsində yeni açılmış hallarla əlavə ittihamların irəli sürüldüyü halda bu barədə tərəflərə bildirməli və öz fikirlərini ifadə etmək üçün şərait yaratmalıdır. Bu hüquq şifahi dinləmə zamanı və ya yazılı formada təmin edilə bilər.

**Maddə 21. AGF-nin İntizam Komissiyasının qərarları**

Dinləmələrin sonunda İntizam Komissiyası tərəflərin iştirakı olmadan qapalı müşavirə keçirir.

Müşavirənin yekunu olaraq İntizam Komissiyasının qərarı qəbul edilir. Qərar İntizam Komissiyasının iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir.

Səsvermədə iştirak edən bütün üzvlər səs verməlidirlər. Səslər bərabər olduqda, sədrin səsi həlledici sayılır.

İntizam Komissiyasının üzvləri komissiya tərəfindən aparılan müzakirələrin məxfiliyini təmin etməlidirlər.

**Maddə 22. Açıqlama**

İntizam Komissiyası tərəfindən baxılan işlərin protokolları geniş ictimaiyyətə açıqlanmır.

İntizam Komissiyası tərəfindən qəbul edilmiş yekun qərarlar proporsionallıq testi keçirdikdən sonra qərarın anonimşləşdirilmiş qaydada çıxarışı ilə AGF-nin rəsmi dövri mətbuatında, həmçinin digər kütləvi informasiya vasitələrində tam və ya qismən dərc edilə bilir.

**Maddə 23. İntizam işlərinə baxılması ilə bağlı xərclər**

İntizam işlərinə baxılması ilə yaranan xərclər AGF tərəfindən ödənilir. Bundan əlavə, iştirak edən hər bir tərəf öz xərclərini özü ödəyir.

Nizamnamənin, səlahiyyətli orqanları tərəfindən qəbul edilmiş qərar və göstərişlərin kobud şəkildə pozulduğu təqdirdə İntizam Komissiyası bu işin baxılması ilə bağlı bütün xərcləri barəsində sanksiya tətbiq edilən şəxsin üzərinə qoya bilər.

İntizam Komissiyası, həmçinin, işdə qalib gəlmiş tərəfin işə baxılmasından yaranan xərclərinin barəsində sanksiya tətbiq edilən şəxs tərəfindən ödənilməsi barədə qərar qəbul edə bilər.

**Maddə 24. Ümumi prosessual normalar və müddətlər**

İntizam Komissiyası işin baxılmasına başlanılan gündən 6 (altı) ay ərzində həmin iş üzrə qərar qəbul etməlidir. Müstəsna hallarda bu müddət İntizam Komissiyasının sədrinin vəsatəti əsasında İcra Komitəsi tərəfindən uzadıla bilər. İntizam Komissiyası tərəflərin təqdim etdiyi sübutlarla kifayətlənmir. O, mübahisənin həlli üçün səlahiyyətləri çərçivəsində məqbul bildiyi istənilən digər sübutlara istinad edə bilər. İntizam Komissiyasının qərarı əsaslandırılmış olmalıdır. Buna zərurət yarandıqda, qərarda işin baxılmasından irəli gələn zərər və xərclərin ödənilməsi qaydası göstərilməlidir.

İntizam Komissiyasının qərarında apellyasiya vermə qaydası və onun verilməsi üçün yekun müddətlər göstərilməlidir. Qəbul olunmuş qərar tərəflərə və AGF-nin Baş katibinə göndərilir.

**Maddə 25. Apellyasiya**

Nizamnamənin 11-ci maddəsinə əsasən intizam xarakterli qərarlar üzrə AGF daxilində apellyasiya instansiyası funksiyasını həyata keçirmək üçün Apellyasiya Komissiyası yaradılır. Apellyasiya Komissiyası 3 (üç) müstəqil üzvdən ibarət olmaqla AGF-nin Ümumi Yığıncağı tərəfindən 5 (beş) il müdddətinə seçilir və onların səlahiyyət müdddəti bitdikdən sonra yenidən seçilməsinə yol verilə bilər, lakin eyni şəxs, ardıcıl və ya fasilələrlə olmaqla AGF-nin digər seçkili orqanlarında keçirdikləri müdddətlər də nəzərə alınmaqla, ümumilikdə 4 (dörd) dəfədən artıq müvafiq vəzifələrə seçilə bilməz.

Apellyasiya işlərinə baxılarkən tərəflərin dinlənilməsi, prosesdə bərabər hüquqlu olmaları və ədalətli araşdırma prinsiplərinə riayət edilməsini təmin edir.

İntizam Komissiyasının qərarından narazı olan tərəf, müvafiq qərarı aldıqdan sonra 15 (on beş) gün ərzində müəyyən edilmiş qaydada Apellyasiya Komissiyasına yazılı apellyasiya şikayəti verə bilər.

Əgər apellyasiya şikayəti müəyyən edilmiş müddət ərzində təqdim olunmazsa və ya gec təqdim edilərsə, İntizam Komissiyasının qərarı qəti hesab ediləcək.

Apellyasiya orqanı işə İntizam Komissiyasının qərarı, yazılı materiallar, iş üzrə mövcud sübutlar, tərəflərin yazılı izahatları, əlavə təqdim edilən sənədlər və zərurət yarandıqda iş üzrə mütəxəssis və ya şahidlərin cəlb edilməsi kimi xahişlər əsasında baxır.

İntizam Komissiyasının qərarına təsir göstərə biləcək yeni faktlar və ya sübutlar ortaya çıxdıqda icraatın yenidən açılması barədə müraciət təqdim edilə bilər.

Apellyasiya mərhələsində yeni sübutlar apellyasiya şikayəti ilə birgə təqdim olunmalıdır. Sonradan təqdim olunan sübutlar, qəbul olunmur. Lakin o, həmin sübutları ərizəni təqdim etməmişdən əvvəl verə bilməzdisə, və ya bu hal onun iradəsində asılı deyilsə, onda bu istisna aradan qaldırılır.

Apellyasiya Komissiyasının sədri işdə iştirak edən bütün tərəflərə apellyasiya barədə məlumat verməli və apellyasiya ərizəsinin surətini onlara göndərməlidir. Tərəflər apellyasiya ərizəsinin surətini aldıqdan sonra 10 (on) təqvim günü ərzində öz yazılı rəylərini Apellyasiya Komissiyasına təqdim edə bilərlər. Alınmış rəylər dərhal şikayətçiyə göndərilir.

Əgər apellyasiya şikayəti verən şəxs dinləmələrin keçirilməsini tələb edirsə, Apellyasiya Komissiyası tərəfindən bu cür vəsatətin əsaslı olması hesab edilərsə, bu halda apellyasiya şikayətinin baxılacaqı Apellyasiya Komissiyasının vaxtı və yeri müəyyən edilir. Bu iclasda bütün tərəflərin iştirakı məcburidir. Zərurət olduqda, iclasa şahidlər, ekspertlər və digər şəxslər dəvət oluna bilərlər. Dinləmələr barədə bildiriş icllasın keçirilməsinə ən azı 5 (beş) gün qalmış tərəflərə göndərilir.

Apellyasiyanın verilməsi İntizam Komissiyasının qəbul etdiyi sanksiyanın tətbiqini dayandırmır.

Apellyasiya Komissiyasının qərarlarının icrası AGF-nin aidiyyəti orqanları və vəzifəli şəxsləri tərəfindən təmin edilir və bu məqsədlə zəruri inzibati və təşkilati tədbirlər həyata keçirilir.

**Maddə 26. Ümumi müddəalar**

İntizam Komissiyası qəbul etdiyi istənilən müvafiq qərar barədə AGF-yə məlumat verir.

AGF-nin İcra Komitəsi İntizam Komissiyasının qəbul etdiyi qərarların icrasını təmin edir.

**Maddə 27. Qaydaların qüvvəyə minməsi**

Bu İntizam Qaydalarının yeni nəşri 2026-cı ilin 16 fevral tarixindən qüvvəyə minir.

**Maddə 28. Əlavə və dəyişikliklər**

Hazırkı Qaydalara əlavə və dəyişikliklər yalnız Ümumi Yığıncağın qərarı əsasında oluna bilər.